# Məhəmməd Hadinin 140 illiyinə həsr edilmiş seminar



18 dekabr 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2019-cu ildə verdiyi Sərəncam əsasında Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrası ilə Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının təşkilatçılığı ilə "Məhəmməd Hadinin 140 illiyinə həsr edilmiş poeziya söhbətləri" adlı seminar-müzakirə keçirildi.

Tədbirdə Gənclər Şurasının üzvləri, oxucular, universitetin müəllim kollektivi iştirak edib. Hadi yaradıcılığına həsr olunmuş interaktiv tədbirdə AYB-nin Gənclər Şurasının sədri, şair Fərid Hüseyn, Günel Şamilqızı, Fuad Cəfərli, Zaur Rəxşan, Rəvan Cavid şairin yaradıcılığı haqqında danışıb, tələbələrin suallarına cavab verdi. Müzakirəni tədbirin  təşkilatçısı Ülvi Babasoy giriş sözü ilə açaraq iştirakçıları salamlayıb, tədbir haqqında, Məhəmməd Hadinin 140 illiyi ilə əlaqədar keçirilən layihələr barədə məlumat verib.

Daha sonra Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru Akif Hüseynli, Pedaqoji fakültənin dekanı, dossent Elşad Abdullayev, Azərbaycan dili və ədəbiyyatı kafedrasının dossenti Sədrəddin Hüseyn, müəllim Yeqzar Cəfərli, kafedranın müdiri, dossent Emin Ağayev, Pedaqoji fakültənin dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Kənan Bəşirov  dahi şair Məhəmməd Hadi yaradıcılığından söz açdılar. Tədbirin davamında tələbələrin suallarına cavab verən yazarlar müzakirədə iştirak edən hər kəsə kitablar hədiyyə etdilər.

Kaspi 2019.- 21-23 dekabr.- S.9.